| | |
|---|---|
| **Feyzulla Ağasəfər oğlu Quliyev**<br>**Azərbaycan Respublikasının əməkdar memarı**<br>**Şərq Ölkələri Beynəlxalq Memarlıq Akademiyasının müxbir üzvü** |  |

1940-cı ildə anadan olmuşdur. 1958-1964-cü illərdə Çingiz İldırım adına Azərbaycan Politexnik İnsitutunun memarlıq fakultəsində təhsil almışdır.

Beş ilə yaxın Qazaxıstanda memar kimi fəaliyyət göstərmişdir. Bu müddət ətzində Qaraqanda vilayətində Abay, Şaxtinski və Saran şəhərlərinin master planlarını hazırlamış, Qaraqanqa şəhərinin bir sıra yaşayış rayonlarının müfəssəl planlarının, o cümlədən bağlı buz örtüklü idman qurğusunun, pioner və məktəblilər sarayı kimi layihələrin müəllifi olmuşdur.

Uzun müddət Bakı Dövlət Layihə İnstitutunda məsul vəzifədə fəaliyyət göstərmişdir. SSRİ dövründə tərtib edilmiş Bakı şəhəri Baş Planının yeganə azərbaycanlı müəllifidir.

Hazırda Dünya Bankının dəstəyi ilə həyata keçirilən Böyük Bakının regional inkişaf planının hazırlanmasında şəhərsalma üzrə məsləhətçidir. Həmçinin Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının dosentidir.